*Azərbaycan Respublikası*
*Təhsil Nazirliyi*
***BAKI DÖVLƏT UNİVERSİTETİ***

**ƏMR №** R-102
14.10.2011
*Bakı şəhəri*

***Məzmunu: İmtahan zamanı köçürtmə və nizam-intizam qaydalarının pozulması hallarına qarşı görülən tədbirlər haqqında***

2010/2011-ci tədris ilində Tədris Elektron Mərkəzinin və müəllim-koordinatorların birgə və səmərəli fəaliyyəti nəticəsində universitetdə bakalavriat və magistratura pillələri üzrə semestr, eləcə də yekun dövlət imtahanlarının obyektiv və şəffaf keçirilməsində xeyli nailiyyətlər əldə olunmuşdur. Tələbələr tərəfindən konspektlərdən, texniki və digər vasitələrdən istifadə edərək köçürtmə hallarının aradan qaldırılması barədə Rektorun 05 yanvar 2011-ci il tarixli 01 saylı Sərəncamından sonra köçürtmə halları nəzərə çarpacaq dərəcədə azalmışdır. Bu istiqamətdə aparılan işləri daha da gücləndirmək məqsədi ilə

***ƏMR EDİRƏM***

1. İmtahan zamanı bakalavriat və magistratura pillələrində əyani və qiyabi şöbələr üzrə təhsil alan tələbələrin imtahanda onlara yardımçı ola biləcək vasitələrinin (mobil telefon, digər rabitə və ya köməkçi vasitələr-kitab, dəftər, qısa mətn surətləri və s.) auditoriyalara gətirmələri və imtahan zamanı bu köməkçi vasitələrdən istifadə edilməsi, həmçinin daxili nizam-intizam qaydalarının pozulması halları qəti qadağan edilsin və bu barədə tələbələr yazı vərəqələrində imza etməklə tanış olsunlar.
2. İmtahan zamanı tələbələr tərəfindən yuxarıda sadalanan köməkçi vasitələrdən istifadə və nizam-intizam qaydalarının pozulması halları aşkarlanarsa, həmin tələbələr ümumi rəhbər tərəfindən fakültə dekanının, müəllim-koordinatorların və ya Tədris elektron mərkəzinin nümayəndəsinin iştirakı ilə imtahandan kənarlaşdırılsın və onların imtahan nəticələrinin ləğvi haqqında akt tərtib edilsin.
3. Mövcud əsasnaməyə müvafiq olaraq köçürtmə halı imtahan vərəqində imtahanda topladığı bal sütununda «köçürtmə», nizam-intizam qaydasının pozulması halı isə «imtahandan kənarlaşdırılıb» sözləri yazılmaqla öz əksini tapsın.

4. Köçürtmə və nizam-intizam qaydasının pozulması halına yol vermiş tələbələr həmin fəndən təşkil olunan yay semestrinə buraxılmasınlar.
5. Köçürtmə və daxili nizam-intizam qaydalarını pozan tələbələrə töhmət elan edilsin, onların valideynləri Universitetə dəvət edilərək bu haqda məlumatlandırılsınlar. Fakültə dekanın təqdimatı əsasında həmin tələbələr haqqında məlumat «Bakı Universiteti» qəzetində işıqlandırılsın, tələbələrin siyahısı fakültə elanlar lövhəsində asılsın.
6. Universitetdə təhsil aldığı müddətdə tələbə ikinci dəfə köçürtmə və ya nizam-intizam qaydasının pozulması hallarına yol verərsə, həmin tələbə fakültə dekanlığı tərəfindən sonrakı imtahanlara buraxılmasın və universitet tələbələri sırasından xaric edilməsi barədə məsələ qaldırsın.
7. Əmr bütün fakültələrdə imza etdirməklə tələbələrin nəzərinə çatdırılsın və fakültə elanlar lövhəsində asılsın.
8. Əmrin icrasına nəzarət tədrisin təşkili və təlim texnologiyaları üzrə prorektor prof. İ.N.Əliyevaya həvalə edilsin.

***ƏSAS*: *Rektorun 05 yanvar 2011-ci il tarixli 01 saylı Sərəncamı.***

***R E K T O R*** ***akademik A.M.MƏHƏRRƏMOV***

ƏSLİ İLƏ DÜZDÜR